## Səfərbər yatır

## Xalq şairi Bəxtiyar Vahabzadəyə

Məndən soruşurlar, - necədir şair?
Oyaqdır, - qəlbində şeirlər yatır.
"Gülüstan" sülhünü pozub yenidən,
Bəxtiyar hökmünü yazan ər yatır.

Ocağa atdılar, oda yeridi,
üstünə qəm gəldi, qada yeridi.
Tanklar yeriyəndə, o da yeridi,
o vaxtdan yaralı bir əsgər yatır.

Əlində qələm var, gözündə eynək,
qələmi qılıncdı, eynəyi - şimşək.
Otağı - səngərdi, çölü - qar, külək,
o oyaq qalanda, bir şəhər yatır.

Döyüşür, vuruşur insan haqq üçün,
bir kibrit bəs eylər bir ocaq üçün.
Yerə də yatmışıq - biz qalxmaq üçün,
dözmür, zəlzələdən bəzən yer yatır.

"Latın əlifbası", ya "Ana dili",
sahilsiz ümmanın ümman sahili.
Yolunu gözləyir Şuşa, Füzuli,
səfərdən qayıdıb, - səfərbər yatır

**Həsənzadə, Nəriman**

**Ədəbiyyat qəzeti.-2009.-20 fevral.-S.6.**